AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# RESPUBLİKA FƏNN OLİMPİADALARI
## RESPUBLİKA MƏRHƏLƏSİ
## YARIMFİNAL TUR
**11.03.2017**

# TARİX
# 10-cu SİNİF

**1. Abdulla Qaliyev və Şeyx Mənsurun başçılıq etdiyi üsyanların oxşar cəhətləri:**
1. Dağlı xalqlarının azadlıq mübarizəsi olması
2. Rusiyanın müstəmləkə zülmünə qarşı olması
3. XVIII əsrdə baş verməsi
4. Müridizm bayrağı altında çıxış etmələri
A) 3,4 B) 1,3 C) 2,4
D) 1,4 E) 2,3

**2. XX əsrin əvvəlində digər şəhərlərdən fərqli olaraq kənd təsərrüfatı xarakterini itirmiş şəhərlər:**
1.Bakı 2.Nuxa 3.Gəncə 4. Şuşa 5.Şamaxı

A) 1,2,3 B) 4,5 C) 1,3 D) 1,4 E) 1,2

**3. XIX əsr fransız tənqidi realizminin nümayəndəsi olmuş və "Əziz dost" adlı əsər yazmış mütəfəkkir:**
A) Aleksandr Düma
B) Fransisko Qoyya
C) Emil Zolya
D) Viktor Hüqo
E) Gi de Mopassan

**4. Uyğunluğu müəyyən edin:**
1. Pol Verlen
2. Emil Zolya
3. Gi de Mopassan
a. "İnsan komediyası"
b. "Jerminal"
c. "Həyat"
d. "Sözsüz romanslar"
A) 1-b; 2-c; 3-a B) 1-a; 2-b; 3-c
C) 1-d; 2-b; 3-c D) 1-a, b; 2-c; 3-d
E) 1-c; 2-b; 3-a, d

**5. Məhəmməd şahın fəaliyyətinə aiddir:**
A) Mirzə Tağı xanın vəzifədən uzaqlaşdırılması
B) İngiltərə ilə münaqişənin baş verməsi
C) Tənbəki üsyanının baş verməsi
D) Urmiyada ali tibb məktəbinin açılması
E) Məşrutə hərəkatının yatırılması

**6.**
*1. Dövləti Səfəvilərin adından idarə edirdi;*
*2. Vergi yığılmasında qayda-qanun yaratmışdı;*
*3. Yerli hakimlərin fəaliyyəti üzərində nəzarəti gücləndirmişdi.*

**Qeyd edilənlərin aid olduğu hökmdar:**

A) Fətəli şah
B) Məhəmmədhəsən xan Qacar
C) Nadir şah Əfşar
D) Ağa Məhəmməd şah Qacar
E) Kərim xan Zənd

**7. Əsərlərində Böyük Moğol hökmdarı Əkbər şahın siyasətini kəskin tənqid etmiş tarixçi:**
A) Cəlaləddin Rumi
B) Fəzlullah Rəşidəddin
C) Mahmud Kaşğari
D) Bədaun
E) İbrahim Ludi

**8. Şah I Abbasın əmri ilə Naxçıvan əhalisi köçürülmüşdü:**
A) Abbasabada
B) Şirvana
C) Tehrana
D) Xorasana
E) Qarabağa

**9. 1554-cü ildə Buğurd yaxınlığında baş vermiş döyüşün nəticəsi:**
A) Abdulla xan Ustaclının qoşunu qalib gəldi
B) Səfəvilər məğlub edildi
C) Üsyançılar məğlub edildi
D) Osmanlı qoşunu məğlub edildi
E) Krım türklərinin qoşunu qalib gəldi

**10. 1572-1573-cü illər üsyanı zamanı Təbrizə təyin olunmuş yeni hakim:**
A) Yusif bəy Ustaclı
B) Rüstəm xan Təkəli
C) Hacı Qəssab
D) Qulu bəy Əfşar
E) İmamqulu xan Qacar

**11. 1724-cü il İstanbul müqaviləsinə aiddir:**
A) Səfəvilərlə Osmanlılar arasında imzalanması
B) Rusiyanın Kurdən şimaldakı ərazilərə qoşun yerləşdirməməsinin qeyd olunması
C) Kürdən cənubdakı Xəzəryanı bölgələrin Səfəvilərə qaytarılması
D) Arazdan cənubdakı ərazilərin Səfəvilərə qaytarılması
E) Gürcüstanın Osmanlı dövlətinə mənsub olmasının təsdiqlənməsi

**12. Nadir şah Əfşara aiddir:**
A) Bağdad döyüşündə qalib gəlməsi
B) Muğan qurultayının çağırılması
C) Kirmanşah müqaviləsinin imzalanması
D) Ölkənin dörd əyalətə bölünməsi
E) Şahbağı döyüşündə üsyançıları məğlub etməsi

**13. Qeyd edilənlərdən neçəsi XIX əsrin II yarısında Azərbaycana aid deyil:**
1. Əsrin sonlarında Azərbaycana kənardan narın duz gətirilməsi Abşerondakı duz istehsalına mənfi təsir etmişdi
2. Şəhər əsasnaməsinə əsasən, fəhlə, qulluqçu, ziyalı və qadınlar seçkilərdə iştirak edə bilməzdilər
3. Bakı şəhər Dumasının fəaliyyətinin əsaslarından birini də vergi və rüsumların toplanması təşkil edirdi
4. Bakıda ilk elektrik stansiyası "Elektrosila" cəmiyyətinə məxsus idi
5. İri feodallar və ruhanilər taxıl möhtəkirliyi ilə məşğul olurdu
A) 3 B) 4 C) 1
D) 2 E) 5

**14. XIX əsrin II yarısında Azərbaycana aid deyil:**
1. Kənd təsərrüfatı istehsalı kənd əhalisinin ehtiyaclarını lazımi səviyyədə ödəmədiyindən kəndlilər arasında sənət və peşələrə meyil daha da güclənmişdi
2. Əsrin sonlarında daxili təsərrüfatın təşkili sisteminin təkmilləşməsi burada ənənəvi forma olan bazar ticarətinin əhəmiyyətini xeyli azaltmışdı
3. Ticarətin yarmarka forması Bakıda təşkil edilsə də, Nuxa və digər şəhərlərdə də fəaliyyət göstərirdi
4. Ticarətin ən mütərəqqi forması olan birja Rusiyada ilk dəfə olaraq məhz Bakıda yaradılmışdı
5. Kapitalizmin inkişafı nəticəsində şəhərlərdə ixtisaslaşma baş verirdi
A) 1,2,4 B) 1,2 C) 1,3,5
D) 2,4 E) 3,4,5

**15. XVIII əsrdə yaşayıb-yaratmış məşhur türk bəstəkarı:**
A) Ömər bəy İtri
B) Mehmet Ağa
C) Nedim
D) İshak Paşa
E) Əbdülqadir Marağayi

**16. Sagit Xalfinin fəaliyyətinə aiddir:**
A) İlk tatar əlifbasını tərtib etmişdir
B) Çuvaş əlifbasını tərtib etmişdir
C) Gürcüstanda ilk mətbəənin yaradıcısı olmuşdur
D) İlk Osmanlı mətbəəsinin təşəbbüsçüsü olmuşdur
E) Buxarada qızlar üçün xüsusi məktəb açmışdır

**17. Sultan Məhəmməd və Levninin fəaliyyətinə aid oxşar cəhət:**
A) XIV əsr hökmdarı olmaları
B) Miniatür rəssamlığının nümayəndələri olmaları
C) İslahatçı hökmdar kimi tanınmaları
D) Musiqiyə dair əsər yazmaları
E) Coğrafiyaşünas olmaları

**18. Karlovitsa sülhünə görə Osmanlı imperiyasının itirdiyi ərazilərdən deyil:**
A) Podolya və Sağsahil Ukrayna
B) Moreya və Transilvaniya
C) Macarıstan və Xorvatiya
D) Şimali Serbiya və Belqrad
E) Dalmasiya

**19. Jak Lui David və V. Borovikovskinin fəaliyyətinə aid oxşar cəhət:**
A) Dövlət xadimi olmaları
B) Bəstəkar olmaları
C) Memar olmaları
D) Rəssam olmaları
E) Yazıçı-dramaturq olmaları

**20. Ç. Dikkens və C. Bayronun yaradıcılığında fərqli cəhətlər:**
A) Ç. Dikkens musiqiçi, C. Bayron isə tənqidçi olmuşdur.
B) Ç. Dikkens ABŞ, C. Bayron isə İngilis ədəbiyyatının nümayəndəsi olmuşdur.
C) Ç. Dikkens şair, C. Bayron isə yazıçı olmuşdur.
D) Ç. Dikkens praqmatizm, C. Bayron isə tənqidi-realizm cərəyanının nümayəndəsi idi.
E) Ç. Dikkens realizm, C. Bayron isə romantizm cərəyanının nümayəndəsi olmuşdur.

**21. İran dövlətinin XIX əsrin I yarısına aid xüsusiyyətlər:**
1. Xaricilərə konsessiyalar verilməsi prosesinin güclənməsi
2. Cənubi Qafqaz uğrunda mübarizədə Rusiyaya məğlub olması
3. Ölkəyə xarici kapital axının artması
4. Ölkənin sosial – iqtisadi həyatında ruhanilərin mühüm rol oynaması
5. Mirzə Tağı xanın islahatlarının uğursuzluqla nəticələnməsi

A)1,2,3 B) 3,4,5 C) 2,3,4
D)1,2,4 E)1,3,5

**22. ABŞ-da quldarlıq tərəfdarlarının siyasi ağalığına son qoydu:**
A) Zəncilərin vətəndaşlıq hüquqları haqqında qanunun qəbul edilməsi
B) Vətəndaş müharibəsinin başa çatması
C) "Azadlıq haqqında bəyannamə" nin elan edilməsi
D) Respublikaçılar partiyasının prezident seçkilərində qələbə qazanması
E) İkinci istiqlaliyyət müharibəsinin qələbə ilə başa çatması

**23. Uyğunluğu müəyyən edin:**
1. Varron
2. Vitruvi
3. Vergili

a. "Kənd təsərrüfatı haqqında"
b. "Latın dili haqqında"
c. "Memarlıq haqqında"
d. "Cisimlərin təbiəti haqqında"
e. "Eneida"

A) 1-e; 2-b; 3-c
B) 1-a,b; 2-c; 3-e
C) 1-b; 2-c; 3-a
D) 1-d; 2-b,c; 3-a
E) 1-c; 2-e; 3-a,d

**24. Qeyd edilənlər aiddir:**
1. Dərbəndin Ərdəbildən daha böyük şəhər olduğunu qeyd edir,
2. Dərbəndi liman şəhəri kimi təsvir edir.
A) Əl-İstəhri
B) Əl-Müqəddəsi
C) İbn Havqəl
D) Əl- Məsudi
E) Əbu Duləf

**25. Uyğunluğu müəyyən edin:**
1. Əl-İstəhri
2. İbn Havqəl
3. Əl-Müqəddəsi
4. Əl- Məsudi

a) Bakını Şirvan məmləkətinin neft çıxan torpağı kimi qiymətləndirir.
b) Təbrizin Bağdadla müqayisədə üstün olduğunu qeyd edir.
c) Azərbaycanın ən böyük şəhəri Ərdəbildir.
d) Tiflisi Arran şəhərləri sırasına daxil edir.
e) Urmiya şəhərinin iqlimi saf və təmizdir.

A) 1-a,b; 2-c; 3-d; 4-e
B) 1-e; 2-b; 3-c; 4-d
C) 1-d,e; 2-c,d; 3-b; 4-a
D) 1-a; 2-b,c,d; 3-e; 4-c
E) 1-c; 2-e; 3-a,d; 4-b

**26. Xuan Çao üsyanı zamanı Çini idarə edən imperator:**
A) Sitzun
B) Van Syançji
C) İç Jou
D) Yan Quan
E) Lin Yan

**27. Aşağıda qeyd edilənlərin hansı mənbəyə aid olduğunu müəyyən edin:**
- *Qul, at və ya qoşqu heyvanı oğurlayandan 30 solid cərimə alınmalıdır.*
- *Taxıl anbarını yandırandan 63 solid cərimə alınmalıdır.*
- *Öküz oğurlayan 35 solid cərimə ödəməlidir*.
A) Hammurapi qanunları
B) Frank qanunları toplusu
C) Monqolların "Böyük Yasa"sı
D) Yustinian qanunları
E) Napoleon məcəlləsi

**28. 1830-cu ildə Azərbaycan feodallarının müsadirə edilmiş əmlakı özlərinə qaytarıldi:**

A) Ordu sıralarında qulluq etmələri şərti ilə
B) Yerli üsyanların yatırılmasına kömək göstərmələri şərti ilə
C) Kəndliləri təhkimçilikdən azad etmələri şərti ilə
D) Ərazinin idarəçiliyində iştirak etməmələri şərti ilə
E) Torpaqlarının bir hissəsini kəndlilərə vermələri şərti ilə

**29. Uyğunluq pozulmuşdur:**
A) Mir Mehdi Həşimzadə - "Kitabi-tarixi Qarabağ"
B) Həsənəlixan Qaradaği – "Şükürnameyi – şahənşahi"
C) Mirzə Əhməd – "Əxbərnamə"
D) Mirzə Kazım bəy – "Bab və babilər"
E) Mirzə Adıgözəl bəy – "Qarabağnamə"

**30. Xəritə-sxemdə Papa IX Piyin Roma vilayətində öz hakimiyyətini bərpa etmək üçün müraciət etdiyi dövlətləri müəyyən edin:**




A) 1,2
B) 2,3,4,6
C) 1,4,5
D) 3,5
E) 1,3,4,6